**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 176**

**Bakı şəhəri, 27 aprel 2018-ci il**

**“Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, ocümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

“Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 195; 2015, № 10, maddə 1222; 2016, № 8, maddə 1451) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün ərizə-anket" üzrə:

1.1. 13-cü hissədən "və ya miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozduğunuza görə inzibati məsuliyyətə cəlb edilmisinizmi" sözləri və "or involved into administrative liability for violation of the requirements of migration legislation" sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 13-1-ci hissə əlavə edilsin:

<table>
<tr><td colspan="3">13-1. Miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozduğunuza görə inzibati məsuliyyətə cəlb edilmisinizmi<br>(Have you ever been involved into administrative liability for violation of the requirements of the legislation in sphere of migration)<br>bəli / yes □ xeyr /no □</td></tr>
<tr><td>13-1.1. nə vaxt<br>(when)</td><td>13-1.2. səbəbi<br>(reason)</td><td>13-1.3. hansı orqan tərəfindən<br>(name of authority)</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
</table>

2. Həmin qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ərizə-anket" üzrə:

2.1. 13-cü hissədən "və ya miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozduğunuza görə inzibati məsuliyyətə cəlb edilmisinizmi" sözləri və "or involved into administrative liability for violation of the requirements of migration legislation" sözləri çıxarılsın;

2.2. aşağıdakı məzmunda 13-1-ci hissə əlavə edilsin:

<table>
<tr><td colspan="3">13-1. Miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozduğunuza görə inzibati məsuliyyətə cəlb edilmisinizmi<br>(Have you ever been involved into administrative liability for violation of the requirements of the legislation in sphere of migration)<br>bəli / yes □ xeyr / no □</td></tr>
<tr><td>13-1.1. nə vaxt<br>(when)</td><td>13-1.2. səbəbi<br>(reason)</td><td>13-1.3. hansı orqan tərəfindən<br>(name of authority)</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
</table>

3. Həmin qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ərizə-anket” üzrə:

3.1. 13-cü hissədən “və ya miqrasiya sahəsində qanun-vericiliyin tələblərini pozduğunuza görə inzibati məsuliyyətə cəlb edilmisinizmi” sözləri çıxarılsın;

3.2. aşağıdakı məzmunda 13-1-ci hissə əlavə edilsin:

<table>
<tr><td colspan="3">13-1. Miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozduğunuza görə inzibati məsuliyyətə cəlb edilmisinizmi<br>bəli □ xeyr □</td></tr>
<tr><td>13-1.1. nə vaxt</td><td>13-1.2. səbəbi</td><td>13-1.3. hansı orqan tərəfindən</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
</table>

**Azərbaycan Respublikasının Baş naziri** **Novruz Məmmədov**